**Azərbaycan**. - 2024.- 6 iyul. - № 139. - S. 13.

# COP29-dan Astana toplantısında da geniş bəhs olundu

**Flora Sadıqlı**

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısında da əsas mövzulardan idi. Çıxışlarda Azərbaycanın evsahibliyi edəcəyi COP29-a uğurlar arzulandı və onun məhz müvəffəqiyyətlə keçəcəyinə inam ifadə olundu.**

"ŞƏT plyus" formatında görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bu il təxminən 200 ölkənin yekdil dəstəyi ilə ölkəmizin COP29-a evsahibliyi edəcəyi məsələsinə də toxunmuşdur. Dövlətimizin başçısı demişdir: "Biz dünyada ən böyük beynəlxalq tədbir olan COP29-un keçirilməsinə hazırlıq istiqamətində ŞƏT ilə işi davam etdirəcəyik. Mən artıq ŞƏT-ə üzv dövlətlərin liderlərinə rəsmi dəvət məktubları ünvanlamışam və həmkarlarımı noyabrda Bakıda görəcəyimə ümid edirəm".

Prezident İlham Əliyev həmçinin bildirmişdir ki, biz Bakıda keçiriləcək COP29 çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq üçün səylərimizi əsirgəməyəcəyik və inkişaf etməkdə olan ölkələrin legitim maraqlarını nəzərə alacaq razılaşmanın əldə edilməsinə çalışacağıq. Azərbaycanın prioritetləri sırasında həm də iqlim dəyişikliyinin mənfi təsiri səbəbindən ekzistensial təhlükə ilə üzləşən inkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstək yer alır. Ölkəmiz inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün xüsusi texniki yardım fondunun yaradılması təşəbbüsü ilə çıxış edib.

Xatırladaq ki, dövlətimizin başçısı son dövrdə mötəbər tədbirlərin hər birindəki çıxışında COP29 mövzusuna geniş şəkildə toxunur. Aprel ayında Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"ndakı çıxışında Prezidentimiz bildirmişdir ki, COP29-a evsahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir: "Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Nəhayət, bu, böyük məsuliyyətdir, çünki biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq. Hesab edirəm ki, Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla beynəlxalq əlaqələri və onlarda fəal iştirakı bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmaq və ya onları gücləndirmək, eləcə də onların həmrəyliyini möhkəmləndirmək imkanını yaradacaq".

İndi Azərbaycan bu qlobal tədbirə hazırlığın fəal mərhələsindədir. Artıq COP29-a az vaxt qalır. Odur ki, yaxşı nəticələrə nail olmaq üçün əlimizdən gələni edirik. "Yaşıl gündəliyimiz" də artıq dünyaya bəllidir. Əslində, Azərbaycanın bu gündəliyi hələ COP29 qərarından əvvəl icra olunmağa başlanıb. Xarici tərəfdaşlar və sərmayədarlarla "yaşıl keçid" üzrə nəhəng layihələrə start verilib. 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

Prezident İlham Əliyev digər bir vacib məqamı da vurğulamışdır. Belə ki, COP29-un keçirilməsinə qərar veriləndən dərhal sonra bəzi mətbuat orqanları bir məsələdən narazılıqlarını bildirdilər. Bundan əvvəlki - 28-ci sessiyanın Birləşmiş Ərəb Əmirliklərində keçirildiyini vurğulayaraq soruşdular ki, iqlim dəyişmələrinə həsr olunan bu mötəbər tədbirə nə üçün növbəti dəfə yenə neft-qaz ölkəsi evsahibliyi edəcək? Prezident İlham Əliyev Berlindəki bütün çıxışlarında məhz həmin məsələyə bir daha münasibət bildirmişdir. Qeyd etmişdir ki, neftlə, qazla zəngin olan ölkələr haqqında hansısa miflər yaradılmamalı, onlar buna görə qınaq obyektinə çevrilməməlidir. Çünki bu ölkələr, o cümlədən Azərbaycandan əvvəl COP-u keçirmiş Misir və Birləşmiş Ərəb Əmirlikləri iqlim məsələlərinin həlli üçün böyük səylər göstərmişlər. Dünyada bu məsələ ilə bağlı ayrı-seçkilik, diskriminasiya aparılmamalıdır. Bu təbii sərvət Tanrıdan verilən bir paydır və ölkələrə bu nemətə görə qiymət verilməlidir. Əsas məsələ isə həmin sərvətdən düzgün istifadə etməkdir.

Azərbaycana gəldikdə, ölkəmizdə karbohidrogen ehtiyatlarından əldə olunan gəlirlərdən düzgün istifadə olunur. Buna görə də yoxsulluğun səviyyəsi son 20 il ərzində 50 faizdən 5 faizə enmişdir. Borcumuz ümumi daxili məhsulun cəmi 7,9 faizinə bərabərdir. Neftdən, qazdan gələn gəlirlər cəmiyyətdə ədalətli bölünür. Bu gün biz həm də erməni vandallarının 30 il ərzində xarabaya çevirdiyi Qarabağı və Şərqi Zəngəzuru yenidən tikib-qururuq.

İyunun 4-də Bakı Enerji Həftəsinin açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev bir daha vurğulamışdır ki, bizə qiymət verilən zaman bütün bu amillər nəzərə alınmalıdır. İndi iqlim dəyişikliyi hər bir ölkə üçün çağırışdır. Azərbaycan proaktiv addımlar atmışdır və hazırda tərəfdaşları ilə birgə çalışır. BƏƏ və növbəti COP-a evsahibliyi edəcək Braziliya ilə birlikdə "Troyka" təsis edilmişdir. Qoşulmama Hərəkatının keçmiş sədri qismində Azərbaycan 120 ölkə ilə birlikdə bu təsisat və Avropa İttifaqı arasında

körpülərin qurulmasına çalışır. Avropa İttifaqına 10 üzv dövlət ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında bəyannamə imzalanmışdır.

Prezidentimiz həmçinin xatırlatmışdır ki, biz hazırda inkişafda olan kiçik ada dövlətləri ilə fəal işləyirik. Onların dəstəklənməsi məqsədilə xüsusi fondun yaradılmasını planlaşdırırıq: "Azərbaycan üçün iqlim dəyişikliyi problemdir, onlar üçün isə bu, ekzistensional təhlükədir. Beləliklə, biz maksimal dərəcədə məsuliyyət nümayiş etdirməyə və eyni zamanda beynəlxalq ictimaiyyətin müxtəlif komponentləri arasında körpülər qurmağa çalışırıq. Hesab edirəm ki, COP29 çərçivəsində maliyyə məsələləri ilə yanaşı, əldə edə biləcəyimiz ən böyük nəticə qarşılıqlı ittihamlara son qoyulması olacaqdır".

Dövlətimizin başçısının dediyi kimi, biz baş verənlərə görə bir-birimizi günahlandırmağı dayandırmalı, səylərimizi səfərbər etməli, iddialardan əl çəkməli və diqqətimizi övladlarımız və nəvələrimizin yaşamağa davam edəcəyi bu planetdəki həyatla bağlı gündəliyimizə yönəltməliyik.